

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 71 (23.713)

21 aprel 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Hacıqabul rayonuna səfərə gəlib. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Hacıqabul şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub. Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov rayonda görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

Aprelin 20-də Hacıqabul Sənaye Məhəlləsinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Dövlətimizin başçısına sənaye məhəlləsində yerləşən müəssisələr barədə məlumat verilib.

Həmin gün Hacıqabul-Muğan avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Dövlətimizin başçısına uzunluğu 11,5 kilometr olan yolun texniki göstəriciləri barədə məlumat verilib.

Prezident İlham Əliyev Hacıqabul rayonunun Meyniman kəndinin ərazisində fermer Elşən Xəlilovun 10 hektarlıq pambıq tarlası ilə tanış olub.

Aprelin 20-də Hacıqabul rayonunda "Aqro Dairy" Məhdud Məsuliyyətli Cəmiyyətin aqroparkının təqdimatı olub, Hacıqabulda 110/35/10 kilovoltluq "Qarasu" yarımstansiyası istismara verilib. Prezident İlham Əliyev həmin tədbirlərdə, Hacıqabulda "Azərsun Şamaxı Aqropark"ın açılışında iştirak edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Azərbaycan Televiziyasına müsahibə verib.



## Muxtar respublikada iqtisadiyyatın aparıcı qüvvəsi olan sahibkarlığın inkişafı diqqət mərkəzindədir



***Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində iqtisadiyyatda və onun əsasını təşkil edən sahibkarlığın inkişafı sahəsində müşahidə olunan müsbət meyillər özünü göstərməkdə davam edir. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq olunan Dövlət proqramları çərçivəsində iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində mühüm tədbirlər həyata keçirilib, sahibkarlara dövlət maliyyə köməyi sistemi formalaşdırılıb.***

Dövlət proqramları, eyni zamanda sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlərin sistemliliyini təmin edib, bu tədbirləri vahid strategiyanın həyata keçirilməsinə yönəldib. Ümumiyyətlə, sahibkarlığın inkişafı sahəsində qəbul edilmiş normativ-hüquqi sənədlər, sahibkarlığa dövlət maliyyə mexanizminin daha da təkmilləşdirilməsi iş adamlarının özünənam hissini artırıb, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yeni sahibkarlıq subyektlərinin fəaliyyətə başlamasına təkan verib. Artıq muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri sosial təşəbbüslərə daha fəal qoşulmaqdadırlar.

Qeyd edək ki, özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir. Sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, özəl sektorda innovativ texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələrinin, infrastruktur sahələrinin yaradılması, özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 7 avqust tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Fondu ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxs yaradılıb və "Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası" təsdiq edilib. Yeni qaydaların tətbiqi sahibkarların güzəştli maliyyə resurslarına çıxışının, eləcə də özəl sektorda məhsul istehsalının artmasına və ixracının genişlənməsinə, istehsal xərclərinin azalmasına, yeni istehsal sahələrinin yaradılmasına, özəl bölmənin dövlət dəstək mexanizmlərindən daha geniş istifadəsinə imkan yaradıb.

Belə ki, güzəştli kreditlərdən istifadə qaydalarının mütəmadi olaraq təkmilləşdirilməsi nəticəsində sahibkarlıq subyektlərinə verilən kreditlərin ümumi həcmi artmış, iş adamlarının kreditlərə çıxış imkanları daha da genişlənmişdir. 2020-ci ildə muxtar respublikada sahibkarlığın inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən 37 milyon 676 min 800 manat kredit verilmişdir ki, bunun 15 milyon 577 min manatı Sahibkarlığın İnkişafı Fondunun payına düşmüşdür. Ümumilikdə, 2000-ci ildən ötən dövr ərzində fond tərəfindən 1529 layihənin maliyyələşdirilməsinə 169 milyon manatdan çox güzəştli kreditlər ayrılmışdır.

Belə ki, cari ilin ötən dövrü ərzində Sahibkarlığın İnkişafı Fonduna sahibkarlar və ailə təsərrüfatı subyektləri tərəfindən 77 müraciət daxil olub. Həmin müraciətlər üzrə monitorinqlər aparılıb, iqtisadi cəhətdən səmərəli hesab edilən müxtəlif təyinatlı prioritet layihələrlə bağlı sahibkarlıq subyektlərinə və ailə təsərrüfatlarına biznes-planların və digər zəruri sənədlərin hazırlanması istiqamətində köməkliklər göstərilib. Nəticədə, cari ilin 3 ayı ərzində fondun vəsaitləri hesabına müvəkkil kredit təşkilatı vasitəsilə 18 layihənin maliyyələşdirilməsinə 388 min 200 manatdan çox kredit verilib. Həmin vəsaitdən sənayeyönümlü 1 layihənin maliyyələşdirilməsinə 80 min manat yönəldilib. Həmçinin kənd təsərrüfatı məhsulları istehsalı, o cümlədən heyvandarlıq, arıçılıq, bağçılıq sahələrinin və soyuducu anbarın yaradılması, süd məhsullarının qablaşdırılması məqsədilə 17 layihənin maliyyələşdirilməsinə 308 min 200 manat vəsait sərf edilib.





Bazar iqtisadiyyatının tələblərinə uyğun fəaliyyət göstərən və ildən-ilə genişlənən ailə təsərrüfatlarına artan maraq muxtar respublika iqtisadiyyatının önəmli hissəsini təmin edir. Kiçik ailə təsərrüfatlarının böyüyüb gələcəkdə sahibkarlıq obyektinə çevrilməsi, onların tutduğu biznes profilləri üzrə yüksək dərəcədə ixtisaslaşıb rəqabətqabiliyyətli məhsullarla dünya bazarına çıxmasınadək keçən bütün proseslərdə onlara maliyyə dəstəyi və digər köməkliklər göstərilir. Ailə təsərrüfatlarına kreditlərin verilməsi, onların fəaliyyətinin stimullaşdırılması üçün sərfəli şərtlərlə xammal, avadanlıq alınması, ixrac bazarlarına çıxış üçün sərgi, yarmarka və biznes görüşlərdə iştiraklarının təmin edilməsinin diqqətdə saxlanılması bu gün öz bəhrəsini verməkdədir.

2021-ci ilin 3 ayı ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən arıçılıq, heyvandarlıq təsərrüfatlarının yaradılması və genişləndirilməsi məqsədilə 8 ailə təsərrüfatına 94 min 200 manat həcmində dövlət maliyyə dəstəyi göstərilib. Fəaliyyətlərinin genişləndirilməsi məqsədilə həmin ailə təsərrüfatlarında aparılan maarifləndirmə tədbirləri zamanı Sahibkarlığın İnkişafı Fondunun vəsaitlərindən istifadə qaydaları və prioritet layihələr haqqında geniş məlumatlar verilib.

Bundan sonrakı illərdə də iri fermerlərin fəaliyyətinin genişləndirilməsi, yeni növ və çeşiddə, o cümlədən istehsal profillərinə uyğun əlavə dəyər yaradan sahələrə yönəldilməsi istiqamətində maarifləndirilməsi, yeni layihələrin hazırlanaraq ailə təsərrüfatlarına təqdimatının keçirilməsi qarşıya qoyulan prioritet vəzifələrdəndir.

Muxtar respublikada fəaliyyət göstərən fermer və ailə təsərrüfatlarının ixtisasına uyğun kiçik, orta və irihəcmli əkinçilik, heyvandarlıq, süd emalı, bağçılıq, balıqçılıq və digər istehsal sahələri üzrə layihələrin hazırlanması, onlarla birlikdə həmin layihələrin təqdimatının keçirilməsi və dövlət maliyyə dəstəyinin göstərilməsi istiqamətində görüləcək tədbirlər həm istehsal edilən məhsulların həcminin, həm də keyfiyyətinin dəyişilməsinə səbəb olacaq, eyni zamanda bu sahə üzrə ixtisaslaşmış yeni ailə təsərrüfatları yaradılacaqdır.

*Bütün bunlar bundan sonra da ümumi iqtisadi inkişafda sahibkarların xüsusi çəkisinin artan xətt üzrə inkişaf edəcəyini təsdiqləyir. Çünki artıq muxtar respublikada sahibkarlıq üçün möhkəm baza yaradılıb və bu proses davam etməkdədir.*

**Çinarə BALAYEVA**
***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

*Kənd təsərrüfatının inkişafında və ərzaq təhlükəsizliyinin təmin olunmasında baytarlıq sahəsinin oynadığı mühüm rol nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti və tabeliyindəki qurumların iş şəraiti yaxşılaşdırılır. Kəngərli Rayon Baytarlıq İdarəsi üçün yeni inzibati binanın inşa olunması da həyata keçirilən tədbirlərin tərkib hissəsidir.*

## Baytarlıq idarəsi üçün yeni bina inşa olunur



Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq yeni inzibati binanın tikintisinə bu il aprel ayının əvvəlindən başlanılıb. Bu günədək binanın təməl hissəsi atılıb, zirzəmi hissəsinin beton-karkas işləri başa çatdırılıb. Hazırda zirzəmi hissəsində arakəsmələrin hörgüsü aparılır, birinci mərtəbədə isə beton-karkas işləri üçün hazırlıq görülür. Obyektdə işlər sürətlə və keyfiyyətlə aparılır.

Qeyd edək ki, müasir layihə əsasında inşa olunan binanın zirzəmi hissəsində arxiv, iş otaqları, süni mayalanma avadanlıqlarının və dərmanların saxlanc otaqları, yeməkxana və qazanxana yerləşəcək. Birinci mərtəbədə iş otaqları, laboratoriya, patoloji materialların qəbulu otağı, Bakteriologiya və Serologiya şöbələri, ikinci mərtəbədə isə iş otaqları, baytar həkim və sahə baytar məntəqəsi üçün otaqlar olacaqdır.

Yeni inzibati binanın tikintisi Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsinin inşaatçıları tərəfindən həyata keçirilir.

**Babək İSMAYILOV**

## Əkin işləri sürətləndirilib

Şərur rayonunda iqtisadi baxımdan sərfəli bitki olan qarğıdalı əkininə başlanılıb. Qısa zamanda 200 hektardan artıq sahədə əkin aparılıb. Bölgədə qarğıdalı əkinləri texnikalarla həyata keçirilir.



Ailə təsərrüfatçıları çalışırlar ki, əkinləri optimal müddətdə başa çatdırsınlar. Bu sahədə təcrübəli ailə təsərrüfatçıları daha yaxından iştirak edir, gələcəyin bol məhsulu üçün zəmin yaradırlar. Bunun üçün əkindən əvvəl torpaq münbitləşdirilib, dərin şum aparılıb. Hazırda qarğıdalı əkinlərinin suvarılması üçün hazırlıq işləri görülür.

Qeyd edək ki, qarğıdalı zəngin qida elementlərinə malik bitkidir. Son illər bu bitkinin muxtar respublikada əkilib-becərilməsinə diqqət xeyli artıb. Xüsusilə qədim əkinçilik diyarı olan Şərur rayonunun torpaq mülkiyyətçiləri iqtisadi baxımdan səmərəli olan qarğıdalı əkinlərinə üstünlük verir. Ötən il rayonda 1218 hektarda qarğıdalı yetişdirilib, 12 min 545 ton məhsul götürülüb.

Rayonda tərəvəz əkini sahələri də əkinə hazırlanır. Bitkilərin suvarılması mexaniki üsulla həyata keçirilir. Bu məqsədlə 1,5 hektar ərazidə çiləyici qurğular quraşdırılıb.

**Xəbərlər şöbəsi**

Müasirləşən kəndlərimiz

# Yurd yerinə qəlbən bağlanan insanlar

***Qədim diyarımızın inkişaf və tərəqqisinin nəticəsidir ki, Naxçıvan şəhəri başda olmaqla, rayon mərkəzləri, qəsəbə və kəndlərimiz gözəlliyi, təmizliyi, səliqə-sahmanı ilə göz oxşayır. Muxtar respublikanın abad yaşayış məntəqələri sırasına bir neçə il əvvəl Şərur rayonunun İbadulla kəndi də qoşulub.***

Ötən günlərdə həmin yaşayış məntəqəsinə üz tutduq. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Qərib Abuzərovla söhbət zamanı öyrənirik ki, 2018-ci ildə burada yenidənqurma işləri aparılıb, qədim kənd müasir görkəminə qovuşub. Bu gün kəndin hansı tərəfindən baxsaq, özünəməxsus memarlıq çalarları ilə zəngin yeni binaları görmək mümkündür. Ən çox diqqəti çəkən isə məktəb binasıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri məktəbin açılışında deyib: ***"Müstəqil dövlətin aparıcı qüvvəsi onun təhsilli, vətənpərvər gəncləridir. Ölkəmizdə təhsilə göstərilən qayğının əsas məqsədi də gələcəyimiz üçün təhsilli və vətənpərvər gənclər hazırlamaqdan ibarətdir".*** İbadulla kəndində inşa olunan məktəb binasında şagirdlərin kompüter biliklərinin möhkəmləndirilməsi, sağlam ruhda böyüməsi, eləcə də onlarda hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşması üçün hər cür şərait yaradılıb. Müasir avadanlıqlarla təchiz olunan məktəb tədrisin daha səmərəli təşkilinə imkan verir. İbadulla kənd tam orta məktəbi həm də ali təhsil müəssisələrinə qəbulun səviyyəsinə görə nümunəviliyi ilə seçilir.

Təhsil ocağının direktoru Qurban Qurbanovun sözlərinə görə, məktəb rayon üzrə ən böyük ümumtəhsil müəssisələrindən biridir. Hazırda burada 363 şagird təhsil alır. Dərslər fənn kabinələrində, elektron lövhələrdə, kompüter siniflərində əyani vəsaitlərlə tədris olunur ki, bu da şagirdlərin bilik və bacarıqlarını müfəssəl şəkildə artırmağa imkan verir. Təsadüfi deyil ki, məktəbin şagirdləri istər rayon, istərsə də muxtar respublika üzrə keçirilən fənn olimpiadalarında, idman oyunlarında yaxından iştirak edir, uğurlar qazanırlar. Şahmat, yüngül atletika, futbol, voleybol eləcə də hərbi idman oyunlarında əldə edilən nailiyyətlər şagirdlərin yüksək fiziki inkişafından, vətənpərvərlik ruhunda tərbiyəsindən xəbər verir. Məktəbi keçən il 21 şagird bitirib, onlardan 15-i ali məktəbə, 1-i isə orta ixtisas məktəbinə qəbul olunub. Tələbə adını qazanan abituriyentlərdən 8-i 500-700 intervalında bal toplayaraq müəllim və valideynlərinin etimadını doğrultdular. Bununla yanaşı, 1 nəfər hərbi liseyə, 4 nəfər orta ixtisas məktəblərinə, 3 nəfər Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə daxil olub. Cari tədris ilində məktəbin 11-ci sinfində 22 şagird təhsil alır. Müəllimlər çalışırlar ki, şagirdlərin hamısı tələbə adını qazansın. Müdriklərin belə bir sözü var: təhsil xəzinədir, əmək isə onun açarı. Bu kəlamı iş prinsipinə çevirən məktəb kollektivi şagirdlərin savadlı, vətənpərvər, əsl vətəndaş kimi yetişməsi üçün əzmlə çalışır.



Kənd mərkəzi bir neçə vacib strukturu özündə birləşdirməklə sakinlərin şəhər və rayon mərkəzinə gediş-gəliş zərurətini ortadan götürür, rabitə, səhiyyə və digər sosial xidmətlərlə bağlı məsələləri tez bir zamanda həll etmələrinə geniş imkanlar açır. Kənd sakini Şahin Abdullayev söhbət zamanı bildirir ki, İbadullada aparılan quruculuq işləri, yaradılan şərait ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının yeni müstəvidə uğurla davam etdirilməsinin nəticəsidir. Fəxrlə deyə bilərəm ki, qədim tarixə malik olan bu kəndin müasir görkəmi hər birimizdə sabaha inam hissi doğurur. İndi buraya üz tutan qonaqlar da kəndin dünəni ilə bu gününü müqayisə edir, qısa zamanda böyük fərqlərin yarandığını söyləyirlər.

İbadulla kəndində həyata keçirilən quruculuq tədbirləri sırasında radio-televiziya verici stansiyası da var. Bu stansiya Şərur rayonunun bir sıra kəndlərindəki ötürücülərin fəaliyyətini gücləndirir. Əvvəllər köhnə avadanlıqlarla işləyən stansiyada bu gün yüksək iş əmsalına malik əsas və ehtiyat magistral kabel xətləri və ərazi üzrə 16 avtomat telefon stansiyası, fiber-optik sonlandırma avadanlıqları, paylayıcı və çevirici qurğular, Türkiyə-Naxçıvan arası aralıq gücləndirici və radiorele linkləri modemləri quraşdırılıb. Bütün bunlar televiziya və radio kanallarının ərazidə rəqəmsal formatda kəsintisiz və keyfiyyətli yayımına imkan yaradır.

Yaşayış məntəqəsi ilə qısa tanışlıq zamanı onu da öyrənirik ki, sakinlər əməksevər, fədakar, torpağa bağlı insanlardır. İbadullanın müəllimi, həkimi, digər peşə sahibləri də bu qiymətli sərvətdən möhkəm yapışıb. Onlar yaradılan şəraitdən səmərəli istifadə etməyə çalışırlar. Yazın gəlişini səbirsizliklə gözləyən kəndlilər artıq sahələrdə işə başlayıblar. Zəhmət adamları 150 hektar sahədə əkinçiliyin bir neçə sahəsi üzrə hər il bol məhsul tədarük edirlər. Bol məhsul isə, təbii ki, yaxşı güngüzəran deməkdir. Əkin-biçin ərazilərindən başqa, 20 hektardan çox örüş yeri də vardır ki, bu da kənd adamlarına mal-qaranın sayını artırmalarına imkan yaradır.

Həmsöhbət olduğumuz kənd sakini Mirabbas Seyidov deyir ki, mən ötən ilin payızında 15 hektar sahədə taxıl, 5 hektara yaxın sahədə yonca, 1 hektarda isə qarğıdalı əkmişəm. Torpaqda işləyən insan zəhmət çəkir və bunun bəhrəsini görür. Mən də əkdiyim sahələrdən yaxşı məhsul götürdüm. İçməli su sarıdan da vəziyyətimiz ürəkaçandır, kənddə 2 arteziandan istifadə edirik. "Torpaq ona tər verənə zər verər" atalar sözü ilə söhbətinə başlayan kənd sakini Xanımzər Bağırova bildirir ki, yaradılan münbit şərait hesabına hər il təbii ərzaq məhsullarını öz həyətyanı sahələrimizdən yığıb istifadə edirik, bunun üçün dükan-bazara üz tutmağa da lüzum qalmır. Qış üçün tədarük görür, qalanını isə sataraq özümüzə gün-güzəran yaradırıq. Təbii ki, qayğı, diqqət olan yerdə uğur qazanmaq çətin deyil.

Kənddə diqqətimizi cəlb edən amillərdən biri də ucu-bucağı görünməyən torpaq sahələrində cidd-cəhdlə çalışan insanlar, eləcə də səs-küyü kəndin aşağısınadək yayılan traktorlar olur. Halbuki sakinlərin dediyinə görə, bir vaxtlar bu mənzərələri xəyallarda canlandırmaq belə, mümkünsüz idi, texnikanın azlığı insanların əlini işdən tamamilə soyutmuşdu. Ancaq bu gün kəndli ən müasir kənd təsərrüfatı texnikalarına sahibdir. Muxtar respublikaya yeni texnikaların gətirilməsi kənd adamlarını torpağa daha sıx tellərlə bağlamaqla əkin-biçin işlərinin miqyasının da ilbəil genişlənməsinə yol açıb.

Öyrənirik ki, otlaq sahələrinin çoxluğu qədimdən burada əkinçiliklə yanaşı, heyvandarlığın da inkişafını əlverişli edib, yurdun insanları dədə-babadan bu sahə ilə müntəzəm məşğul olublar. İndi də maldarlığın, heyvandarlığın inkişafı üçün dövlətdən kredit götürən onlarla kənd sakini var. Elə ailə tapılmaz ki, 10, hətta 20 baş iribuynuzlu və yaxud xırdabuynuzlu heyvanı olmasın.

*Kənddə olduğumuz müddətdə bu yurd yerinin keçmişi, müasir inkişafı ilə bağlı xoş təəssüratlar yarandı, insanlardakı mehribanlığı, səmimiyyəti hər addımda müşahidə etdik. Görünən odur ki, bu eldə qonum-qonşu, qohum-qardaş bir-birinin xeyrinə, şərinə yaxından şərik olur, qarşıya çıxan problemlərin öhdəsindən birgə gəlirlər. Dövlətimizin yaratdığı imkanlar və əməksevərlikləri ilə torpağa daha ürəkdən bağlanaraq əzmlə çalışır, sabaha inamla, gələcəyə böyük ümidlə baxırlar...*

✍ **Aytac CƏFƏRLİ**

# Təbii kənd təsərrüfatı məhsulları yeni biznes trend kimi

***Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı dinamik hal alıb. Yəni ildən-ilə bu sahədə məhsul istehsalı həcminin yüksələn xətlə inkişaf etdiyini görürük. 2020-ci ilin statistikasına nəzər salsaq, bu göstəricinin əvvəlki illə müqayisədə 4,6 faiz artdığını görürük. Yeri gəlmişkən, bu artım faizi digər sahələr üzrə əldə olunmuş artım faizini dəfələrlə üstələyir.***



Muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsal həcminin artması bu sahədə həyata keçirilən mühüm dövlət tədbirləri ilə bağlıdır. Ötən yazıda da qeyd etdiyimiz kimi, indiyədək bu sahənin inkişafı üçün çoxsaylı Dövlət proqramları qəbul olunaraq icra edilib. Təkcə elə bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamla təsdiqlənən "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" bu sahənin inkişafına göstərilən böyük dövlət qayğısını özündə təcəssüm etdirir. Hər iki Dövlət proqramının qəbul olunmasında məqsəd muxtar respublikada keyfiyyətli kənd təsərrüfatı məhsullarının istehsal həcmini artırmaq, ixracı stimullaşdırmaq, əhalinin bu sahədə məşğulluğunu təmin etməkdir.

Məlum olduğu kimi, ötən il muxtar respublikada "İxrac ili" elan edilmişdi. Lakin pandemiya ilə bağlı məhdudiyyətlər qarşıya qoyulan vəzifələrin tam icrasına imkan vermədiyinə görə, 2021-ci il də muxtar respublikada "İxrac ili" kimi saxlanılıb. Bu isə yerli istehsalçıları daha keyfiyyətli, yüksək rəqabətqabiliyyətli, ixracyönümlü məhsullar istehsal etməyə çağırır. Təbii ki, muxtar respublikadan ixrac edilən məhsullar sırasında kənd təsərrüfatı məhsulları da mühüm paya malikdir. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin illik hesabatında məlumat verilir ki, 2020-ci ildə muxtar respublikadan 103 milyon 158 min ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunmuşdur. Statistik məlumatlardan onu da öyrənirik ki, təkcə 2020-ci ildə kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektlərinə 13 milyon 357 min manat kredit verilmişdi ki, bu da bir il öncəki göstəricidən 7,4 faiz çoxdur. Ümumilikdə isə ötən il muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı 537 milyon 584 min manat təşkil edib ki, bu da bir il öncəyə nisbətən 4,6 faiz çox deməkdir. Burada bir məqama diqqət yetirmək lazımdır ki, 2020-ci ildə muxtar respublikada ümumi daxili məhsulun həcmi 2 milyard 907 milyon 810 min 500 manat olub. Sənaye sahəsindən sonra ən çox istehsal kənd təsərrüfatının payına düşür. Qısa və sadə dillə desək, artıq muxtar respublikada aqrar məhsulların istehsal həcmi yarım milyard manatı ötüb və bu rəqəm getdikcə artır. Bu isə daxili bazarı təmin etməklə yanaşı, ixracyönümlü kənd təsərrüfatı məhsullarının həcmini də artırır. Burada maraqlı bir nüans ortaya çıxır. Hazırda dünya bazarlarına çıxarılan kənd təsərrüfatı məhsulları hansı tələblərə cavab verməlidir və yaxud bu gün dünya bazarları kənd təsərrüfatı məhsullarının satışında hansı trendləri ortaya çıxarır?

Suala birbaşa cavab verməzdən əvvəl qeyd edək ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisi qədim zamanlardan burada keyfiyyətli kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə imkan verib. Vaxtilə muxtar respublikada yetişdirilən müxtəlif meyvə növləri ümumdünya səviyyəli mükafatlara layiq görülüb. Ancaq bunu etiraf etməliyik ki, Sovetlər Birliyi tərkibində yaşadığımız dövr, həm də ölkəmizin keyfiyyətli kənd təsərrüfatı məhsullarının dünya bazarlarında yetərincə tanıdılmasına imkan verməyib. Ancaq həmin dövrdə Azərbaycanımızın, eləcə də muxtar respublikamızın aqrar məhsulları ittifaq bazarlarında özünəməxsus yer tutub. Baxmayaraq ki, imperiya dövründə Rusiyanın müxtəlif əraziləri, eləcə də müttəfiq respublikaların bir çoxunda kənd təsərrüfatı sahələri yetərincə inkişaf etsə də, necə deyərlər, sovet insanlarının böyük bir qismi Azərbaycanda yetişdirilən məhsullara üstünlük veriblər. Maraqlı burasıdır ki, yerli aqrar məhsullarımıza olan bu simpatiya postsovet dövründən sonra da davam edib. Təsadüfi deyil ki, müstəqilliyimizin bərpasından keçən dövrdə də ölkəmizin kənd təsərrüfatı məhsulları daha çox postsovet məkanına ixrac olunub. Doğrudur, bu bazar bizim üçün böyük və əlverişli olsa da, ixracın şaxələndirilməsi də müasir biznesin tələblərindəndir. Yeni mərhələdə isə yerli məhsullarımızın daha çox Yaxın Şərq və Avropa bazarlarına ixrac olunması üzərində iş aparılır. Nəzərə alaq ki, yeni bazarların araşdırılması ilə bağlı həm ölkə başçısının, həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıqları var.

Təbii ki, yeni bazarların araşdırılması dedikdə, əslində, həmin bazarlar uzun müddətdir, mövcuddur. Burada söhbət aqrar məhsullarımızın həmin bazarlara çıxarılması və satışından



gedir. Yaxın günlərdə dünya kənd təsərrüfatı məhsullarının satış bazarlarını araşdırarkən qarşıma maraqlı bir mövzu çıxdı. Elə mövzu da haqqında bəhs etdiyimiz bu yazının qələmə alınması zərurətini ortaya qoydu. Deməli, məsələ bundan ibarətdir ki, məlum pandemiya dünyada bir çox biznes sahələrinə təsir edib, bəzilərini xeyli zəiflədib, bəziləri isə bu çətinliyi fürsətə çevirərək böyük uğurlar qazanıblar. Pandemiya həm də, belə demək mümkünsə, yeni bazar şərtlərini ortaya çıxarıb. Belə şərtlərdən biri də bu olub ki, məlum virusla, ümumilikdə isə bütün xəstəliklərlə mübarizədə ən güclü qalxan insan orqanizminin immun sistemidir. İmmun sisteminin sağlam və güclü olması isə yalnız və yalnız təbii qidalanmadan asılıdır. Beləliklə, təbii qidalanma bütün diqqəti, ilk olaraq, kənd təsərrüfatı məhsullarının üzərinə çəkib. Həm aqrar sahə üzrə mütəxəssislər, həm də həkimlərin ortaq çıxış etdiyi nöqtə bu olub ki, sağlam bəşəriyyətin formalaşması təbii, orqanik kənd təsərrüfatı məhsullarından birbaşa asılıdır. Beləliklə, dünya kənd təsərrüfatı məhsulları bazarlarında yeni bir trend ortaya çıxır: orqanik məhsul istehsalı. Yeni trendin ortaya qoyduğu nəticə isə heyrətdoğurucudur. Belə ki, bu gün Avropa bazarlarında hər hansı orqanik məhsulun qiyməti, orqanik olmayan eyni məhsulun qiyməti ilə müqayisədə 4-5 dəfə bahadır. Tələbat isə daha çox orqanik məhsullaradır. Yəni dünya bir müddət bundan əvvəl öz əli ilə zəhərlədiyi məhsulların (geni dəyişdirilmiş və sair) fəsadlarının bundan sonra da davam olunacağını dərk edərək hər kəsi sağlam qidalanmağa çağırır.

Bu gün Naxçıvanda yetişdirilən kənd təsərrüfatı məhsullarının keyfiyyəti, dad-tamı ölkəmizdə hər kəsə məlumdur. Hətta Naxçıvanda yetişdirilən istənilən meyvə və ya tərəvəzin tamı ölkəmizin digər bölgələrində təbii şərtlərlə yetişdirilmiş eyni məhsulla müqayisədə yenə də fərqlənir. Bu isə bizim böyük potensialımızdır. Deməli, qalır bu potensialdan istifadə etmək. Əminliklə demək olar ki, kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramları, torpaq mülkiyyətçilərinə davamlı dövlət dəstəyi, ixracla bağlı görülən işlər bizi daha çox məhsul istehsal və ixrac etməyə çağırır. "Made in Azerbaijan" brendi altında satılan Naxçıvan məhsullarının isə istənilən bazarda uğur qazanacağı şəksizdir.

✍ **Səbuhi HƏSƏNOV**

*Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi haqqında" 2021-ci il 2 mart tarixli Sərəncam imzalamışdır. Adıçəkilən sərəncam Naxçıvanda incəsənət sahəsi və onun nümayəndələrinə böyük diqqətin bariz ifadəsi kimi ziyalılar və sənət adamları tərəfindən böyük razılıqla qarşılanır.*




**Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi – 50**

# Yarımərslik tarixə malik ali sənət məbədi

Bu tarixi əhəmiyyətli sərəncamda deyilir: *"Naxçıvanda rəssamlıq sənəti böyük inkişaf yolu keçmişdir. Tarixi Gəmiqaya təsvirlərindən başlayan Naxçıvan rəssamlıq sənəti XII əsrdən etibarən memarlıq məktəbinin təsiri ilə inkişaf etmişdir. XX əsrin əvvəllərində Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli Naxçıvan rəssamlıq məktəbinə yeni ictimai məzmun qazandırmış, onu forma və təsvir vasitələrilə zənginləşdirmişdir. Ümummilli liderimiz Heydər Əliyevin himayəsi ilə 1971-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı, 2000-ci ildə isə həmin təşkilatın bazasında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi yaradılmışdır. Müstəqillik illərində muxtar respublikada rəssamlıq sənətinin inkişafı ilə bağlı ardıcıl tədbirlər görülmüş, Rəssamlar Birliyi yeni bina və emalatxana ilə təmin edilmiş, birlik üzvlərinin yaradıcılıq imkanları genişləndirilmiş, Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi və Rəssamlar Parkı yaradılmış, ali təhsil müəssisələrində müvafiq ixtisaslar açılmışdır. Bu gün tariximizin və milli dəyərlərimizin təbliği, günümüzün real mənzərəsinin yaradılması və vətənpərvərlik tərbiyəsi Naxçıvan rəssamlarının yaradıcılığında əsas yer tutur".*





Ümumiyyətlə, Azərbaycan mədəniyyəti və incəsənəti çoxəsrlik bir tarixə malikdir. Bu mənada, Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafı, dünyaya tanıdılmasında naxçıvanlı istedadlı simaların da rolu çox olmuşdur. Naxçıvan məhz o diyardır ki, dünya mədəniyyətinin ilkin beşiklərindən sayılır. Burada yaşayan ulu əcdadlarımız istedad və qabiliyyətlərini Gəmiqaya qayaüstü rəsmlərində dilə gətirmiş, daşlaşdırmışlar. Dünyanın nadir, həm də açıq səma altında muzeylərindən biri hesab olunan Gəmiqayada çəkilmiş rəsm nümunələri xalqımızın istedadı və min illəri aşıb gələn mədəni inkişaf tarixinə işıq tutur. XII əsrin böyük mədəni siması olan memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı əsərlər də Azərbaycan mədəniyyətinin inkişafına yön vermiş, dünyada yayılmaqla məktəb formalaşdırmışdır. Bu günə qədər yetişib ortaya çıxmış çoxsaylı mədəniyyət xadimlərimiz də Naxçıvanda incəsənətin inkişafına öz töhfələrini vermişlər.

Ümumiyyətlə, Naxçıvan şəxsiyyətlər etibarilə çox zəngin olan müqəddəs bir diyardır. Dünyanın incisi olan bu müqəddəs torpaq kimləri yetirməmişdir ki? Əcəmi Naxçıvani, Nəsirəddin Tusi, Nemətullah Naxçıvani, Fəzlullah Nəimi, Bayrək Quşçuoğlu və başqaları. Xalqımızın dahi oğlu, ümummilli lider Heydər Əliyev isə bu qədim və ulu diyarın şöhrətini bütün dünyada tanıtmışdır. İncəsənət sahəsində də Naxçıvan çoxsaylı görkəmli, tanınmış şəxsiyyətlərə malikdir: Bəhruz Kəngərli, İbrahim Səfiyev, Elmira Şahtaxtinskaya, Şamil Qazıyev, Məmməd Qasımov... Ümumiyyətlə, Naxçıvan rəssamları böyük xidmətləri ilə yaddaşlarda əbədiləşmişlər. Bəhruz Kəngərli elə bir nadir şəxsiyyət, incəsənət xadimi – dünya şöhrətli rəssam idi ki, təkcə öz əsərləri ilə Azərbaycanın incəsənət tarixini zənginləşdirməmişdi, həm də yaradıcılığı ilə bir tarix yazmış, epoxa yaratmışdı. Təsadüfi deyil ki, onu Azərbaycan realist rəssamlığının, dəzgah boyakarlığının banisi hesab edirlər. Onun yaradıcılıq uğurları Azərbaycan rəsm sənəti tarixinə gətirdiyi yeniliklər kimi daxil oldu. Rəssamın əsərlərinin keyfiyyəti, mövzusu və sənətkarlıq nailiyyətləri Azərbaycan boyakarlığına zənginlik və inkişaf bəxş etdi. Bəhruz Kəngərli sənəti Azərbaycan incəsənətinin taleyinə yeni istiqamət, yön verdi desək, tamamilə doğru olar. O, yaradıcılığı ilə böyük bir məktəb də formalaşdırdı. Bəhruz Kəngərlinin yaratdığı əsərlər təkcə bir sənət nümunəsi, nailiyyət göstəricisi deyil, həm də mənsub olduğu xalqının tarixi taleyi, həyat tərzi, qayğıları, faciə və kədər dünyasıdır. Bundan başqa, öz sənəti, nadir sənətkarlıq keyfiyyətləri ilə iki ölkənin (qardaş Türkiyə və Azərbaycanın) incəsənət dünyasına böyük töhfələr verən İbrahim Səfiyevin də məhz Naxçıvandan boylanan bir sənət günəşi olduğunu məmnuniyyətlə qeyd etməliyik. Deməliyik ki, bu gün artıq Naxçıvanda onlarla peşəkar rəssam çalışmaqda, öz sənət dünyaları ilə ölkəmizə böyük uğurlar gətirməkdə, incəsənət xəzinəsini, sənət qalereyamızı zənginləşdirməkdədir. Xalq rəssamı Hüseynqulu Əliyev, Azərbaycan Respublikasının Əməkdar rəssamları Ülviyyə Həmzəyeva, Telman Abdinov, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamları Əli Səfərov, Elman Cəfərov, Həbibə Allahverdiyeva, Cavid İsmayılov, o cümlədən Bəhruz Quliyev, Rafael Qədimov, Həsən Qurbanov, Fizzə Quliyeva və başqaları məhz Naxçıvanda rəssamlığın yaşadılması və inkişafına böyük məsuliyyətlə çalışan istedadlı sənət adamlarıdır.

Razılıqla qeyd edə bilərik ki, hazırda onlarla istedadlı sənətkarın çalışdığı Naxçıvan Muxtar Respublikasında sənətə və onun nümayəndələrinə böyük qayğı ilə yanaşılır. Artıq 50 ildir ki, Naxçıvanda Rəssamlar Birliyi fəaliyyət göstərir. Məlum olduğu kimi, 1971-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı təsis edilib. 2000-ci ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyi yaradılıb. Rəssamlar Birliyinə çevrilməklə qurum öz fəaliyyətinə müstəqil olaraq davam etmiş, yaradılmış geniş imkanlar sayəsində bir sıra uğurlara imza atmışdır. Rəssamlar Birliyi üçün şəhərin mərkəzində ayrılan müasir dizaynlı, əzəmətli bina da rəssamlara göstərilən dövlət qayğısının bir nümunəsidir. Binada həm də rəssamlar üçün müasir iş şəraiti, o cümlədən emalatxanalar yaradılıb. Binanın ikinci mərtəbəsində fəaliyyət göstərən Bəhruz Kəngərli adına Sərgi Salonu bir tərəfdən ulu ustada yüksək ehtiram, onun ənənələrinə sədaqət nümunəsini, digər tərəfdən Naxçıvan rəssamlarının yaradıcılıq işlərinə göstərilən böyük qayğını təzahür etdirir. Buradakı 200-ə qədər rəsm tablosu Naxçıvan rəssamlarının istedadlı yaradıcılıq işlərini uğurla nümayiş etdirir. Keçirilən müxtəlif tədbirlər, beynəlxalq təşkilati işlər Naxçıvanın bir sənət mərkəzi olduğunu ortaya qoyur. Muxtar respublikamızda beynəlxalq səviyyəli müxtəlif tədbirlərin, o cümlədən festivalların keçirilməsi, dünya xalqlarının sənət biliciləri və görkəmli rəssamlarının bu yurda qədəm basması, doğma diyarımız haqqında ürəkdolusu sözlər deməleri razılıq doğurur. Ənənəvi olaraq təşkil olunan "Naxçıvan – mədəniyyətin beşiyi" adlı beynəlxalq rəsm festivalı da dünyanın sənət adamlarının qədimlik və müasirlik ehtiva edən yurdumuza toplaşdığı belə əhəmiyyətli tədbirlərdən biridir.

Artıq qeyd etdiyimiz kimi, Naxçıvanda həm sənət var, həm də sənətkara diqqət. Naxçıvanda ulu öndər Heydər Əliyev siyasi dəstxətini uğurla davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin göstərdiyi diqqət və qayğı rəssamlar, sənət adamları tərəfindən minnətdarlıqla qarşılanır. Naxçıvanda Rəssamlar Birliyinin uğurla fəaliyyət göstərməsinin təməlində tanınmış dövlət xadimi, Ali Məclis Sədrinin minnətdarlıq doğuran qayğısı dayanır. 2011-ci ildə muxtar respublika rəhbərinin sərəncamı ilə Naxçıvan Rəssamlar Birliyinin 40 illik yubileyinin keçirilməsi də bu diqqət və qayğının bir təzahürüdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı 2021-ci il 2 mart tarixli Sərəncamı da Naxçıvanda incəsənət aləmi və onun nümayəndələrinə göstərilən böyük diqqətin növbəti bariz ifadəsi kimi razılıq yaradır.

*Məmnuniyyətlə bunu da qeyd edə bilərik ki, Naxçıvanda incəsənətin gələcək taleyi də diqqət mərkəzindədir. Gənc rəssamlara göstərilən qayğı Naxçıvanda bu sənətin gələcəyinə olan qayğı kimi minnətdarlıq doğurur. Naxçıvan Dövlət Universitetində mədəniyyətin müxtəlif sahələri, o cümlədən incəsənətlə bağlı ixtisaslar yaradılıb. Bundan başqa, gənc rəssamların fərdi yaradıcılıq sərgiləri təşkil edilir, onların böyük həvəs və şövqlə fəaliyyət göstərmələrinə lazımi şərait yaradılır. Müxtəlif müsabiqələr də gənc rəssamların uğurlarını nümayiş etdirmələrinə və təcrübə qazanmalarına imkan yaradır. Ali Məclis Sədrinin təşəbbüsü və qayğısı ilə gənc ixtisas adamlarına təcrübə keçmələri məqsədilə ustad dərsləri də təşkil olunur. Gənc rəssamların həm də Rəssamlar Birliyi ilə yaxından əlaqələri təmin edilir, ustad rəssamların əhatəsində yetişmələrinə köməklik göstərilir. Bütün bunlar Naxçıvanda rəssamlıq sənətinin yaşadılmasına və inkişaf etdirilməsinə böyük imkanlar yaradır.*

**İnci QULİYEVA**
***Naxçıvan Dövlət Universitetinin II kurs magistrantı***

---

*Əfsanəyə dönən ömürlər*

# Vətən bir ocaqsa, şəhidlər oddur



Şair Xanəli Kərimlinin bu misrasını yazının başlığına ona görə çıxardım ki, şəhidlərimiz haqqında deyilən təşbehlər içərisində bu lap öndə durur. Bəli, ocaq adlanan Vətəndə od yoxdursa, o, ocaq deyil. Bu gün ruhları başımız üstdə gəzən şəhidlərimiz öz şəhadətləri ilə ata-baba əmanəti olan Vətənin müqəddəs bir ocaq, şəhidlərimizin isə bu ocağın odu olduğunu sübut etdilər.

Beş ay keçir Vətən müharibəsində zəfər və qələbə çaldığımız vaxtdan. Vətən adlanan ocağın od oğulları sinələrini sipər etdilər azadlıq mücadiləsində. 44 gün ərzində ordumuzun ər igidləri gücümüzü vandallarla yanaşı, onların havadarlarına da göstərdilər. Bu həm də dünyada beynəlxalq hüquqdan, demokratiyadan, ədalətdən dəm vuranlara bir mesaj idi. Burada müharibə gedən dövrdə rus mətbuatında dərc olunmuş yazıdan bir neçə sətri oxucuların diqqətinə çatdırmaq istəyirəm: "Belə döyüş, belə dövlət, belə Vətən sevgisi görən olubmu? Demək çətindir. Bir müxbir kimi dünyanın bir sıra ölkələrini gəzmişəm, müharibə zonalarını müşahidə etmişəm. Beləsini görməmişəm. Azərbaycan əsgəri dağ yuxarı, həlak olmuş yoldaşı çiynində, döyüşə-döyüşə, qan-tər içərisində qalxırdı. Nə yaralını, nə öləni əldən buraxmırdılar. Budur vətənpərvərlik! Budur Vətən sevgisi! Budur torpağa bağlılıq!"

Tariximizə qızıl hərflərlə yazılmış azadlıq mücadiləsində neçə-neçə igidimiz şəhadət məqamına yüksələrək uğrunda çarpışdığı torpağa tapşırıldı. Onlardan bir neçəsinin son mənzilə yola salınmasında iştirak etmişəm. Gəldiyim qənaət bu olub: Belə xalq sınar, əyilməz, onun övladları öz haqqı uğrunda canından keçər "uf" demədən.

"Təki Vətən sağ olsun!" – deyib ölümün gözünə dik baxan oğullarımızdan biri də Əli Məmmədov idi. 24 il bundan əvvəl Şərur rayonunun Maxta kəndində dünyaya göz açmışdı. Orta təhsilini isə Sədərək rayonunun Qaraağac kəndində almışdı. Sonra Vətən qarşısındakı müqəddəs borcunu yerinə yetirmişdi. Hələ hərbi xidmətdə olarkən bu sahəyə maraq göstərməyə çalışır, təlimlərdə bacarıq və uğurları ilə seçilirdi. Bunu hissə komandirliyi tərəfindən verilən, indi də evlərində əziz xatirə kimi saxlanılan fəxri fərmanlar, təşəkkürnamələr də təsdiq edir. Vətən qarşısındakı borcunu yerinə yetirdikdən sonra Türkiyəyə gedir. Burada idmanın MMA (qaydasız döyüş növü) ilə məşğul olur. Onunla birlikdə olan yoldaşları deyirlər ki, həyatda necə mübariz idisə, idmanda da elə cəsarətli idi. Çətinliklərə sinə gərməyi bacarırdı. Heç vaxt ruhdan düşməməyi onu yoldaşlarına da sevdirmişdi. Arzusunu da tez-tez dostlarına deyirmiş. Nəhayət, Vətənə döndükdən sonra, 2020-ci ilin yanvar ayında müddətdən artıq hərbi xidmət hərbi qulluqçusu kimi xüsusi təyinatlıların sırasına qoşulub. Ordunun bu sahəsinin çətinlikləri onu qorxutmayıb.

İki ay idi ki, ailə quran Əli 2020-ci il oktyabr ayının 11-də döyüşlərə qatılıb. Tez-tez ailəsi ilə əlaqə saxlayırmış, qısa bir vaxtda müharibəni başa çatdıracaqlarını, evə dönəcəklərini deyirmiş. Füzuli, Qubadlı, Zəngilan uğrundakı döyüşlərdən sonra Əli şəhid kimi Şərura qayıtdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətə görə" medalları ilə təltif olunan şəhidimiz Maxta qəbiristanlığında torpağa tapşırılıb. Qısa və bugünkü gənclər üçün örnək olan bir ömür. Əli bu qısa ömrünə ürəyində yaşayan Vətən sevgisindən doğan böyük qəhrəmanlıq yerləşdirə bildi. Şəhadətə ucaldıqdan sonra onu tanıyanların qəlbində özünə yer tutdu. Həmkəndlilərinin dediklərini xatırlayıram:

– Qorxmaz idi, cəsarətli idi, ətrafdakılarla dil tapmağı, dərd-sərlərinə şərik olmağı bacarırdı. Ruhu şad olsun, elə oğulların hesabına torpaqlarımız alındı.

Elə təhsil aldığı orta məktəbdə də haqqında xoş sözlər dedilər. Həmsöhbət olduğumuz müəllimləri Yaşar Hacıyev, Nizami Qədimov, Əmir Zamanov təhsil illərindən yaddaqalan xatirələri dilə gətirdilər. Yaşar müəllimin söhbəti: – Sərhəd bölgəsində yaşayan gənclərin vətənpərvərlik duyğuları, düşünürəm ki, o insanların boya-başa çatdıqları torpaqdan köklənir. Muxtar respublikamız isə hər tərəfdən sərhədlə əhatələnib. Odur ki, vətənpərvərliyi hər bir naxçıvanlıda elə bil torpaq formalaşdırır. Əli Məmmədovun məktəbdə təhsil aldığı illəri yaxşı xatırlayıram. O vaxt torpaqlarımız düşmən işğalı altında idi. İgidlərimizin yolunu gözləyirdi. Gündəlik olaraq dərslərimizdə bu barədə söhbətlər aparırdıq, gec-tez o torpaqların geri alınacağına şagirdləri də inandırmışdıq. Və belə də oldu. Əli də digər yoldaşları kimi Vətən müharibəsinə yollandı, qəhrəmanlıq göstərdi, şəhidlik zirvəsinə ucaldı. Bu zirvəyə ucalmaq hər kəsə nəsib olmur. Bu gün onun qəhrəmanlığı ilə bir vaxtlar təhsil aldığı məktəbin kollektivi qürur duyur.

Həyat yoldaşı Təhminə xanımla söhbətimizin alınacağına inanmırdım. Ancaq ömür-gün yoldaşını çox erkən itirməsi bu məğrur qadına nə qədər təsir etsə də, bu yoxluğu qəbul edib: – Şəhidlər şəhid olacağını öncədən hiss edirlər. Əli də bunu bilirmiş. Çünki evdə tez-tez bu barədə söhbət edirdi. Elə şəhidlik zirvəsinə layiq də qarşılandı.

Biz də "ruhu şad olsun", – deyirik. Və arzu edirik ki, doğma Azərbaycanımızda bundan sonra güllə səsləri yox, hər zaman atəşfəşanlıq səsləri eşidilsin. Necə ki müharibədə əlbir olub qələbə qazandıq, bundan sonrakı həyatımızda ana yurdumuzun daha da çiçəklənməsi, qüdrətlənməsi üçün əlbir olaq.

**Muxtar MƏMMƏDOV**

# Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin uğurları qürurvericidir



*Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı, yeni sənaye və xidmət sahələrinin yaradılması, həmin sahələrdə müasir informasiya texnologiyalarının tətbiqi təhsil sahəsində, xüsusən də dəqiq elmlər sahəsində dərin bilik verilməsinə tələbatı artırır. Bu sahədə muxtar respublikada kadrların hazırlanması diqqətdə saxlanılmış, təhsilə göstərilən hərtərəfli qayğının daha bir nümunəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılmışdır.*

2015-2016-cı tədris ilindən fəaliyyətə başlayan liseydə yaradılan əlverişli şəraitin və tədrisin yüksək səviyyədə təşkilinin nəticəsidir ki, artıq 5 ildir, liseyin məzunları qəbul səviyyəsinə görə 100 faiz nəticə göstərir. Həmçinin liseyin şagirdləri istər muxtar respublika, istərsə də ölkə səviyyəli olimpiada, şahmat, idman və digər müxtəlif yarışlarda yüksək nəticələr əldə edib ön sıraları tutmalarına görə seçilirlər.

Liseyin direktoru Çingiz Rzayev deyir ki, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə istifadəyə verilən 19 sinif otağı, 3 laboratoriya otağı, 3 elektron lövhəli sinif, 2 kompüter otağı, STEAM, Robotexnika, Mental-Aritmetika, şahmat otaqları, bunun la yanaşı, akt zalı, kitabxana, hərbi kabinə, idman zalı, tennis otaqları və minimeydança şagirdlərin bilik və bacarıqlarını artırmaları ilə yanaşı, asudə vaxtlarının da səmərəli təşkilinə geniş şərait yaradır.

Liseyin geniş və zəngin kitabxanası 4 min 110 dərslik və 2 min 524 bədii ədəbiyyat olmaqla, 6 min 634 kitab və eyni zamanda elektron dərsliklərlə zənginləşdirilərək şagirdlərin istifadəsinə verilib. Burada şagirdlər öz biliklərini artırmaq, mütaliə etməklə elmlərə daha dərindən yiyələnmək və nitq mədəniyyətlərinin inkişafı üçün kitabxananın imkanlarından lazımınca istifadə edirlər. Hazırda liseydə 255 şagirdin təlim-tərbiyəsi ilə 31 müəllim və 11 tərbiyəçi məşğul olur. Liseyin dəqiq elmlər üzrə təmayüllü olması burada dərs deyən riyaziyyat və fizika müəllimlərinin məsuliyyətini daha da artırır.

Liseydə muxtar respublikanın ayrı-ayrı rayonlarından olan istedadlı uşaqlar oxuyurlar. Burada şagirdlər dövlət hesabına təhsil almaqla yanaşı, yataqxana və yüksəkkeyfiyyətli yeməklə təmin edilirlər.

Liseyin lazımı avadanlıqlarla təmin edilən 273 yerlik yataqxana binasında da şagirdlərin rahatlığı və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb. Belə ki, yataqxananın hər mərtəbəsinin foyesində yerli televiziya kanallarına çıxışı olan televizorlar və maraqlı bədii kitablarla təchiz olunmuş kitab rəfləri də şagirdlərin istirahət vaxtı məşğuliyyətləri üçün nəzərdə tutulmuşdur. Yataqxana binasında 3 və 5 yerlik olmaqla, 87 otaq, həkim və müayinə otaqları, idman zalı, yeməkxana, mətbəx, camaşırxana və hər mərtəbədə istirahət otaqları var.



Liseydə təhsil iki pillədə – ümumi orta və tam orta təhsil pillələrində aparılır. Həmçinin burada təhsil alan istedadlı şagirdlər fizika və riyaziyyat fənləri üzrə yüksək səviyyədə hazırlıqla təmin edilirlər.

Liseyi son 5 ildə 102 məzun bitirmişdir. Məzunların hamısı respublikanın müxtəlif ali məktəblərinə daxil olaraq tələbə adını qazanmışdır. 36 məzunun göstəricisi isə 500-700 bal intervalında olmuşdur. Məzunlardan 4-ü “Qızıl”, 1-i “Gümüş” nişanla, 15-i isə fərqlənmə attestatı ilə məktəbi bitirmişdir. Cari tədris ilində liseydən 33 şagird məzun olacaqdır.

Liseyin X sinif şagirdi Nicat Əlizadə təhsil aldığı lisey haqqında təəssüratlarını belə ifadə edir: “Burada bizim həm təhsil almağımız, həm də qalmağımız üçün hər cür şərait yaradılıb. Eyni zamanda müəllimlərimiz bizə yüksək səviyyədə dərs keçirlər. Axırıncı sınaq imtahanında 627 bal toplamışam. Bununla yanaşı, Respublika fənn olimpiadasında riyaziyyat fənni üzrə I yerə layiq görülərək “Qızıl” medalla təltif edilmişəm. Bu nailiyyətləri əldə etməyimin əsas səbəbi liseydəki bizə yaradılan şərait və verilən yüksək səviyyəli təhsildir. İnanıram ki, müəllimlərimin köməyi ilə qəbul imtahanlarına daha yaxşı hazırlaşaraq yüksək balla ali məktəbə qəbul olacağam.

Liseyin Uşaq Birliyi Təşkilatının rəhbəri və eyni zamanda biologiya müəllimi Xanım Fərəcova deyir ki, burada istər dərs zamanı, istərsə də məşğələ saatlarında həm şagirdlərin təhsilinə, həm də asudə vaxtlarının düzgün təşkilinə xüsusi diqqət yetirilir. Tərbiyəçi müəllimlərin nəzarəti altında futbol, tennis, şahmat, voleybol, basketbol və digər idman növləri üzrə yarışlar təşkil olunur. Eyni zamanda liseydə müxtəlif bilik yarışları və viktorinalar keçirilir. Qabaqcıl şagirdlər diplom və hədiyyələrlə təltif edilir. Bununla yanaşı, quraşdırılan elektron lövhələr, laboratoriya otaqları bizə imkan verir ki, fənləri şagirdlərə əyani şəkildə izah edək və bütün imtahan və yarışlarda yüksək nəticələrə nail olaq.

Liseydə təhsil almaq üçün hər keçən il müraciət edən şagirdlərin sayı artmaqdadır. Liseyə qəbul ümumtəhsil məktəblərinin VII sinfində təhsil alacaq oğlan şagirdləri arasında müsabiqə yolu ilə aparılır. Qeyd edək ki, hazırda liseyə 2021-2022-ci tədris ili üzrə şagird qəbuluna başlanılıb. Sənəd qəbulu 2021-ci il aprelin 1-dən mayın 25-dək davam edəcəkdir. 10 iyun 2021-ci il tarixdə test formatında keçiriləcək imtahanda muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

Ümid edirik ki, yeni tədris ili üçün Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə təhsil almaq istəyən istedadlı şagirdlər müsabiqədə fəal iştirak edəcəklər.

**Ülviyyə HACIYEVA**

*Mütəxəssis sözü*

# Qızılgül bitkisinin əkilib-becərilməsinə və sahələrinin genişlənməsinə hərtərəfli qayğı göstərilir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”nda qarşıya bir çox sahələrlə yanaşı, muxtar respublikamızda qızılgül sahələrinin genişlənməsi, sahələrdən keyfiyyətli məhsul istehsalı, emalı və ixrac olunması barədə mühüm vəzifələr qoyulub. Artıq həmin vəzifələrin icrasına başlanılıb. Belə ki, əvvəlki illərdə əkilən sahələrə aqrotexniki qulluq işləri aparılır, yeni əkinlər həyata keçirilir.*



Qızılgül gül-çiçəklilər fəsiləsinə aiddir. Çox qədim zamanlardan başlayaraq insanlar yabanı halda bitən qızılgülləri toplayaraq rənglərinə, ətrinə görə seçərək hazırda gördüyümüz mədəni qızılgüllərin növ, sort və formalarını əldə ediblər. Başqa bitkilər kimi, hazırkı qızılgüllər də xalq seleksiyasının məhsullarıdır.



Ədəbiyyat məlumatlarına əsasən qızılgül mədəni halda ilk dəfə Yaxın Şərqdə becərilib. Kiçik Asiyadan Yunanıstana, oradan da Misirə və Romaya yayılıb. Romalılar qızılgülə olan tələbatı görərək onu sənaye istiqamətində becərmişlər. XVI əsrdə isə Hollandiyada sənaye üsulu tətbiq edilib. Sonradan seleksiya və toxumçuluq elm sahəsi kimi inkişaf etdikcə qızılgülün müxtəlif növ və formaları da yaradılmağa başlanılıb. Damas qızılgülü ilə Cənubi Asiya qızılgüllərinin tozlandırılması nəticəsində remontant damas qızılgülü alınıb. Remontant qızılgül növü ilin bütün fəsillərində gülaçma xüsusiyyəti ilə seçilir.

Qızılgüldən ətriyyatda, konserv sənayesində, ətirli çayların hazırlanmasında, təbabətdə geniş istifadə edilir. 1250-1300 kiloqram qızılgüldən 1 kiloqram qızılgül yağı alınır və ətriyyat sənayesində geniş istifadə olunur. Bundan başqa, qızılgüldən gül mürəbbəsi, gülqənd, gül suyu, gülab hazırlanaraq kulinariyada istifadə edilir.

Qızılgül yağı, qızılgül dəmləməsi qədim zamanlardan müalicəvi vasitə kimi tanınır. Bu gülün əsas müalicəvi komponenti efir yağıdır. Qızılgülün efir yağı çox güclü stimullaşdırıcı, bərpaedici, cavanlaşdırıcı təsirə malikdir və ürəyi, sinirləri qoruyan bitkidir. Bundan başqa, qədimdə sinir sistemi, ağciyər, ürək, böyrək, dəri xəstəlikləri zamanı qızılgüldən hazırlanmış yağlardan, dəmləmələrdən çox geniş istifadə edilib. Qızılgül çayı çox faydalı müalicəvi və profilaktik vasitədir. İmmun sistemini, ürəyi möhkəmləndirir, sakitləşdirir, iltihabları azaldır. Ürək-damar sisteminə çox müsbət təsir edir, ürək əzələsini möhkəmləndirir, aterosklerozun qarşısını alır, damarlarda spazmları azaldır, ürək ağrıları zamanı faydalıdır. Nevroz, stress, depressiya zamanı qızılgül yağı əlavə olunmuş vannalar çox faydalıdır. Kosmetologiyada çox geniş istifadə olunur – dərini təmizləyir, cavanlaşdırır, təravətləndirir.

Qızılgüllər toxum və vegetativ üsullarla artırılır. Toxumla artırma effektli nəticə vermir. Bu üsuldan yeni hibridlərin alınmasında və calaqaltı materialın yetişdirilməsində istifadə olunur. Vegetativ üsulla artırma daha əlverişlidir. Bu üsulla artırmada kolların bölünməsindən istifadə edilir. Kolların bölünməsi ən sadə üsuldur. Erkən yazda qızılgül kolları qazılıb çıxarılır, sonra iti bağ qayçısı ilə gövdələr köklərlə birlikdə kəsilib ayrılır və yerüstü hissəsi 3-4 tumurcuğa kəsilərək əkilir. Kökdən çıxan pöhrələr ana koldan iti bel ilə ayrılır, yerüstü hissəsi 3-4 tumurcuğa kəsilərək əkilir. Qızılgül kollarının 0,5 santimetrdən artıq diametri olan zədələnməmiş kökləri 3-5 santimetr uzunluqda kəsilir. 4-5 santimetr dərinlikdə şırım açılaraq üfüqi vəziyyətdə şırımın dibinə düzülüb üstü torpaqla örtülür. Növbəti il köklərdən çıxmış bitkilər qazılıb çıxarılaraq daimi yerinə əkilir.

Yadda saxlamaq lazımdır ki, yuxarıda qeyd olunan çoxaltma üsulları calaq edilmiş qızılgüllərə tətbiq etmək düz deyil. Çünki calaqaltılar müxtəlif olur.

Odunlaşmış çubuqlarla çoxaltma üsulu çox geniş yayılıb. Bu məqsədlə 0,3-0,8 millimetr diametrdə, 12-15 santimetr uzunluqda sağlam çubuqlar kəsilərək bir-birindən 12-15 santimetr aralı 1-2 göz torpaq səthində qalmaqla əkilir. Normal aqrotexniki qulluq şəraitində yazda əkilmiş çubuqlar payızın sonuna kök əmələ gətirir. Çox qiymətli qızılgüllərin çubuqları bu qayda ilə, demək olar ki, heç kök vermir. Belə güllər calaq üsulu ilə çoxaldılır.

Yaşıl çubuqlarla çoxaltmada yeni əmələ gəlmiş, oduncağı kövrək bərkimiş çubuqlardan istifadə olunur. Bu üsuldan əkin materialına çox ehtiyac olduqda istixanalarda istifadə etmək məqsədəuyğundur.

Calaq üsulu ilə artırma da çox geniş yayılıb. Əsasən, həmərsin toxumlarından yetişdirilmiş toxmacarlara istənilən qızılgüldən calaq vurulur. Yuxarıda qeyd edilən artırma üsulları ilə əldə olunmuş güllərə də bu üsulla calaq vurmaq olar. Göz calağı vurmağın ən yaxşı müddəti iyun ayının üçüncü ongünlüyündən sentyabr ayının 15-nə qədərdir.

Qızılgülün budanması çox diqqət tələb edən aqrotexniki tədbirdir. Hər sortun bioloji xüsusiyyətlərinə və təsərrüfat məqsədinə, istiqamətinə görə budama qaydaları mövcuddur. Erkən yazda qızılgül kollarında, əsasən, dərin budama aparılır. Bu qayda ilə kolda qüvvətli düzgövdəli, sağlam və iri gül açan zoğlar əmələ gətirmək olar.

Muxtar respublikamızda bu bitkinin əkilib-becərilməsi üçün bütün imkanlar mövcuddur. İllərdir ki, bu sahədə təcrübə qazanmış insanlar qızılgülün əkilməsi, becərilməsi, ondan istifadə etmək üsullarını yaxşı bilirlər. Adıçəkilən sərəncam isə muxtar respublikada qızılgülün daha geniş coğrafiyada əkilib-becərilməsinə təkan verir.

**Xaliq ABBASOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri***

# Əmək yarmarkası keçirilib



Dünən növbəti əmək yarmarkası Naxçıvan şəhərində keçirilib.Yarmarkada işəgötürənlara 49-u dövlət, 37-i özəl sektor olmaqla, ümumilikdə, 86 müəssisədən 674 boş iş yeri təqdim edilib. Əmək yarmarkasında 45 nəfərin vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 8 nəfərin peşə hazırlığı kurslarına və 14 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

Qeyd edək ki, ümumilikdə, aprel ayı ərzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən muxtar respublikanın şəhər və rayonlarında keçirilən əmək yarmarkalarına, ümumilikdə, 113 dövlət və 140 özəl müəssisədən 1691 boş iş yeri çıxarılıb. Keçirilmiş əmək yarmarkalarında 214 işaxtaran vətəndaşa göndəriş verilib. Həmçinin təşkil olunmuş yarmarkalarda iştirak edən 46 vətəndaşın peşə hazırlığı kurslarına, 94 vətəndaşın özünüməşğulluq proqramına və 17 işaxtaran vətəndaşın isə haqqıödənilən ictimai işlərə cəlb olunması üçün qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Elan

“Xidmət” Açıq Tipli Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

Naxçıvan şəhəri, Xətai küçəsi 6-da yerləşən “Xidmət” ASC-nin inzibati binasında 5 iyun 2021-ci il tarixdə saat $11^{00}$-da səhmdarların ümumi yığıncağı keçiriləcəkdir. Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

*1. Səhmdarların ümumi yığıncağının reqlamentinin təsdiqi*

*2. Cəmiyyətin 2020-ci ildə maliyyə-təsərrüfat fəaliyyətinə dair idarə heyəti sədrinin hesabatı*

*3. 2021-ci ildə fəaliyyət proqramına baxılması*

*4. Sair məsələlər.*

**İdarə heyəti**

## *İtmişdir*

Naxçıvan şəhəri, H.Aslanov küçəsi, döngə 4, ev 20 ünvanında Hacıyev Abbas Xəncan oğlunun adına olan evin MH-0047011 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 335